# Nur şəhəri Mingəçevirə bayram nuru çiləndi

**Səməd Vurğun meydanında Novruzun atributları olan səməni və bayram tonqalının ətrafında uşaqların əylənməsini görmək lazım idi. Bu mənzərə meydanın ətrafındakı tumurcuqlanan ağaclarla üst-üstə düşürdü.**



Belə bir ovqatla başlayan tədbirdə şəhər rəhbərliyi, rəsmiləri, ictimaiyyətin nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər iştirak edirdilər. Mədəniyyət işçilərinin təqdim etdiyi mahnı sovqatı, Uşaq Gənclər İnkişaf Mərkəzi şagirdlərinin rəngarəng rəqsləri, idmançıların yarışmaları, Novruzun özəlliyi olan Dədə Qorduqun Bahar qızla birgə səhnəyə gəlişi, Keçəl və Kosanın məzhəkələri, yumurta döyüşdürülməsi milli-mənəvi dəyərlərimizi nümayiş etdirirdi.

Çıxış edən şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov sakinlərə bayram təbriklərini çatdıraraq bildirdi ki, Novruzun gəlişi hər kəsin qəlbində xoş hisslər oyadır: "Fərəhli haldır ki, builki Novruz bayramı əlamətdar günlərdə, müqəddəs Ramazan ayı ilə eyni vaxtda həyatımıza qədəm qoyur. Ulu babalarımızdan bizə yadigar qalmış Novruz xalqımızın ən qədim adət-ənənələrini özündə əks etdirir. Mənəvi dəyərlərimizi özündə yaşadan Novruz insanlar arasında birliyin, mehribanlığın möhkəmləndirilməsi deməkdir".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü sayəsində Novruz bayramının 2009-cu ildə UNESCO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edildiyini deyən İ.İsmayılov 2010-cu ildən BMT Baş Assambleyasının qərarına əsasən, mart ayının 21-nin "Beynəlxalq Novruz günü" elan edilməsini xatırlatdı. ŞİH-in başçısı daha sonra dedi: "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyimizin bərpa olunması sevinc hissimizi ikiqat artırır. Azad olunmuş ərazilərimizdə, Qarabağ iqtisadi rayonunda böyük quruculuq işləri uğurla həyata keçirilir, keçmiş məcburi köçkünlərin yurd yerlərinə qayıtması üçün hər cür şərait yaradılır. Xüsusilə xalqımızın ən yaralı yerlərindən olan Xocalının bərpası və yenidən qurulması, oranın sakinlərinin uzun illərdən sonra qayıdışı fərəh doğurur. Prezidentin iştirakı ilə həyata keçirilən tədbirlər xalqımız tərəfindən rəğbətlə qarşılanır. Bu zəfəri bizə yaşadan Ali Baş Komandanımıza və milli ordumuzun hər bir əsgər və zabitinə hörmət və ehtiramımızı bildirməklə, onları Novruz bayramı münasibətilə mingəçevirlilər adından ürəkdən təbrik edirəm".

Novruzun gəlişi münasibətilə hər bir şəhər sakinini də təbrik edən İ.İsmayılov bildirdi ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Mingəçevir günbəgün gözəlləşir, abadlaşır: "Ötən illərdə olduğu kimi, bu il də şəhərimizdə geniş quruculuq işləri həyata keçirilir. Yaşayış binalarında əsaslı təmir işləri aparılır, nümunəvi məhəllələr salınır, insanların mənalı istirahəti, gənclərin, uşaqların əylənməsi üçün idman meydançaları yaradılır, yeni istirahət məskənlərinin, xiyabanların yaradılmasına hazırlıq işləri görülür".

Tədbir şən musiqi nömrələri ilə axşam qaş qaralanacan davam etdi.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 20 mart (№ 61).- S.19.